# Mütərəqqi məhkəmə-hüquq islahatları beynəlxalq səviyyədə təqdir olunur

**Tarixən milli inkişaf yolunun banisi statusuna yiyələnən xarizmatik şəxsiyyətlər həm də müsbət planda siyasi varislik ənənələri formalaşdıraraq müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin etmişlər. Anadan olmasının 92-ci ildönümü respublikanın hər yerində yüksək səviyyədə qeyd edilən böyük tarixi şəxsiyyət - ulu öndər Heydər Əliyev də milli dövlətçiliyin ideoloji-siyasi əsaslarını tarixi irs və ənənə əsasında yaradaraq praktik surətdə gerçəkləşdirmiş rəhbər kimi xalqımızın tükənməz sevgisini qazanmışdır.**

**Dünyanın görkəmli dövlət xadimlərindən olan Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında yalnız insanların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuşdur.**



Ötən əsrin sonlarına doğru dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın dünya xəritəsində müstəqil dövlət kimi mövcudluğunu qoruyub saxlaması, ağır sınaqlardan, çətinliklərdən üzüağ çıxması da məhz ulu öndər Heydər Əliyevin fenomenal liderlik keyfiyyətləri sayəsində mümkün olmuşdur. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən proseslər təsdiqləmişdir ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha ağrılı və çətin prosesdir. Belə bir ziddiyyətli və mürəkkəb mərhələdə dövlətin xilası məhz xarizmatik liderlərdən asılı olur.

1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşımışdır. Ulu öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir. Ümummilli lider, ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Ulu öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun tətbiqinə nail olmuşdur.

Həmin dövrdə respublikanın məhdud maliyyə imkanları və zəif büdcəsi ilə qarşıya qoyulmuş strateji məqsədlərin yaxın gələcəkdə reallaşdırılmasının qeyri-mümkünlüyünü nəzərə alan, sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu düzgün olaraq önə çəkən Heydər Əliyev xarici şirkətlər ilə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına da vacib məsələ kimi yanaşmışdır. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasının milli inkişafdakı misilsiz əhəmiyyəti bugünkü intensiv sosial-iqtisadi inkişaf fonunda daha qabarıq görünür. Azərbaycana son 20 ildə böyük uğurlar gətirən neft strategiyasının əsas mahiyyəti ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır. Məhz bu strategiya nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bilmiş, zaman-zaman qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur.

*"Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır"* — deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail olmuşdur. Böyük siyasət ustadı olaraq Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir.

1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Həmin memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir. 1998-ci ilin 22 fevralında ümummilli liderimiz Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir. İnsan hüquqları sahəsində proqram rolunu oynayan bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur.

Ulu öndərin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın qanunvericiliyinin Avropa standartlarına uyğun təkmilləşdirilməsinə, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

Konstitusiya normalarının həyata keçirilməsinin məntiqi nəticəsi kimi qısa müddət ərzində ölkədə demokratik, hüquqi dövlətin möhkəm təməli qoyulmuş, hüquq sistemində köklü dəyişikliklər həyata keçirilmişdir. Beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilən, insan hüquqlarının daha etibarlı təminatına xidmət edən, müasir tələblərə uyğun yeni qanunlar, o cümlədən "Konstitusiya Məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Polis haqqında" qanunlar, Mülki, Mülki-Prosessual, Cinayət, Cinayət-Prosessual və sair məcəllələr qəbul edilmişdir.

Ümummilli liderin Azərbaycana rəhbərliyi dövründə həyata keçirilən mütərəqqi islahatların mühüm istiqamətini də məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, bu kontekstdə insan və vətəndaş hüquq və azadlıqlarının maksimum dərəcədə müdafiəsi üçün çevik mexanizmlərin yaradılması, habelə qanunların aliliyinin təmin olunması məsələləri təşkil etmişdir. Respublikamızda üçpilləli məhkəmə sisteminin formalaşdırılması, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, İnsan Hüquqları üzrə Müvəkkil institutunun yaradılması demokratik inkişaf yolunda əldə olunan mühüm nailiyyətlərdəndir.

1998-ci ilin 1 dekabrında "Məhkəmələr və hakimlər haqqında" qanunun qəbulu isə ulu öndər Heydər Əliyevin Azərbaycanda məhkəmə hakimiyyətinin müstəqilliyi naminə böyük siyasi iradə və qətiyyət nümayiş etdirdiyini bir daha təsdiqləyir. Qanunda hakimlərin toxunulmazlığı, dəyişməzliyi, şəxsi təhlükəsizliyi, siyasi fəaliyyətdən uzaq olmaları, onların müsabiqə yolu ilə seçilib təyin edilməsi, maddi və sosial təminatlarının nəzərdə tutulması tədbirləri vasitəsilə hüquqi dövlətə xas olan məhkəmə sistemi müstəqilliyinin əsas prinsiplərini müəyyən etmişdir.

Qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin genişləndirilməsi məqsədi ilə 2000-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi yaradılaraq fəaliyyətə başlamışdır. İnsanlara hüquqi xidmətin keyfiyyətini yüksəltmək üçün həmin ildən hakim korpusunun yeni forma və metodlarla — test üsulu ilə formalaşdırılması da bu baxımdan xüsusi vurğulanmalıdır.

Ulu öndərin hüquqi dövlət quruculuğu sahəsində mühüm addımlarından biri də Konstitusiya islahatlarının həyata keçirilməsi olmuşdur. Əsas Qanuna xalqın iradəsi əsasında edilmiş dəyişikliklər siyasi partiyaların ləğvi səlahiyyətlərinin Konstitusiya Məhkəməsindən alınaraq ümumi yurisdiksiyalı məhkəmələrə verilməsi, Respublika Prokurorluğunun və Ali Məhkəmənin qanunvericilik təşəbbüsü ilə çıxış etmək səlahiyyətinə malik olması, vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək imkanının yaradılması kimi vacib məsələləri də əhatə edirdi.

Ümumilikdə, 1993-2003-cü illərdə reallaşdırılan məhkəmə-hüquq islahatı ölkənin siyasi və iqtisadi sisteminin kökündən dəyişdirilməsinin tərkib hissəsi kimi həyata keçirilən və mahiyyətcə təkamül xarakteri daşıyan islahatların həm ilkin şərti, həm də obyektiv nəticəsi olmuşdur.

Ulu öndər Heydər Əliyevin insan hüquqlarının qorunmasını ön plana çəkməklə əsasını qoyduğu məhkəmə-hüquq islahatları onun layiqli davamçısı - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı çıxışlarında dəfələrlə bildirmişdir ki, müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması, ədalət mühakiməsinin tamamilə şəffaf, demokratik, obyektiv şəraitdə həyata keçirilməsi, bu zaman insan və vətəndaş hüquq və azadlıqlarının maksimum səviyyədə qorunması baxımından hakimlər korpusunun sağlamlaşdırılması vacib şərtlərdən biridir.

19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Fərman bu istiqamətdə ilk konseptual sənədlərdən olmuşdur. Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası ötən illərdə dövlət başçısının fərmanından irəli gələn vəzifələrin icrası üçün geniş tədbirlər planı hazırlayıb həyata keçirmişdir. Bakıda, Gəncədə, Sumqayıtda, Şəkidə və Şirvanda apelyasiya məhkəmələrinin yaradılması və fəaliyyətə başlaması məhkəmə sisteminin təkmilləşdirilməsi baxımından mühüm addım olmuşdur. Fərman əsasında yaradılmış Ədliyyə Akademiyası ali hüquq təhsili almış şəxslərin ixtisasları üzrə müəyyən vəzifələrə təyin edilməsi üçün onların peşə səviyyəsinin daha da yüksəldilməsini təmin edir. Həmin sənəd əsasında Azərbaycanın məhkəmə sistemi tarixində ilk dəfə olaraq Hakimlərin Etik Davranış Kodeksinin hazırlanıb təsdiq edilməsi də mühüm uğurlardan biri kimi vurğulanmalıdır. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və məhkəmə təcrübəsində nəzərə alınması da Fərmanın müstəsna əhəmiyyətinə dəlalət edir. Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü olduğundan məhkəmələr İnsan Hüquqları üzrə Avropa Konvensiyasının tələblərini rəhbər tutmaqla, Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsini öyrənməli, öz fəaliyyətlərində həmin Konvensiyanın müddəalarından bəhrələnməlidirlər.

Şübhəsiz, məhkəmə hakimiyyətinin nüfuzu və müstəqil təsisat kimi təşəkkül tapması bu hakimiyyəti realizə edən hakimlərin peşəkarlığı, onların mənəvi keyfiyyətləri ilə bilavasitə bağlıdır. Bununla əlaqədar son illər vətəndaşların haqlı narazılığına səbəb olan qanun pozuntularının aradan qaldırılması, məhkəmə hakimiyyətinin hazırlıqlı və mənəvi cəhətdən saf hakimlərlə komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilmiş, bütün məhkəmələrin tərkibi təzələnmişdir. Həmçinin hakimliyə namizədlərin ən şəffaf üsullarla seçilməsi qaydası müəyyən edilmişdir. Çoxsaylı imtahan və müsahibələrdən, namizədlərin hakim vəzifələrinə hazırlanmaları üçün uzunmüddətli kurs və təcrübədən ibarət olan bu seçim proseduru müstəqil qurum — tərkibi əsasən hakimlərdən ibarət olan Hakimlərin Seçki Komitəsi tərəfindən həyata keçirilir. Hakimliyə namizədlərin seçilməsi kimi mühüm vəzifəni yerinə yetirən Hakimlərin Seçki Komitəsinin məqsədyönlü fəaliyyətinin nəticəsi kimi 2007-2013-cü illərdə 300-dən çox hakimliyə namizəd ən şəffaf və mütərəqqi üsulla seçilərək hakim vəzifələrinə təyin olunmuşlar. Bundan başqa, bir çox hakimlərin müddətsiz — son yaş həddinədək təyinatı məhkəmə hakimiyyətinin müstəqilliyinin təmini istiqamətində mühüm addımlardan biri olmuşdur. Ölkə başçısının müvafiq sərəncamları ilə ağır cinayətlər, inzibati-iqtisadi və hərbi məhkəmələrin fəaliyyətə başlaması üçün qısa müddətdə mühüm təşkilati tədbirlər həyata keçirilmiş, 2011-ci ilin yanvar ayından 12 yeni regional məhkəmə fəaliyyətə başlamışdır.

Son illər ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun müasirləşdirilməsinin rolu nəzərə alınaraq bu sahədə irimiqyaslı işlər görülmüş, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan yeni məhkəmə binaları tikilib istifadəyə verilmişdir. Dövlət büdcəsi hesabına hazırda bölgələrdə, o cümlədən Bakının Binəqədi, habelə İmişli, Zaqatala və Qəbələ rayonlarında yeni müasir məhkəmə binaları inşa olunur. Həmçinin, Dünya Bankı tərəfindən dəstək verilən ədliyyə sisteminin müasirləşdirilməsi üzrə layihələr çərçivəsində 30-dək məhkəmənin yerləşəcəyi müasir bina və komplekslərin layihələri hazırlanmış, bir çoxunun inşası aparılmışdır. Artıq 4 rayon məhkəməsi üçün ən müasir İKT-lərlə təchiz olunmuş yeni binalar tikilərək istifadəyə verilmişdir.

Dünya Bankının, Avropa Şurasının, Avropa Məhkəməsinin, CEPEJ-in yüksək səviyyəli şəxsləri ölkəmizə səfərləri zamanı müasir məhkəmə binaları ilə tanış olarkən orada ədalət mühakiməsinin səmərəliliyinə təsir edən yüksək şəraitdən, o cümlədən vətəndaşların müraciət imkanlarını asanlaşdıran ən müasir İKT-lərin tətbiqindən, eləcə də cəmiyyətin həssas təbəqəsi olan əlillərin hüquqlarının təmin olunmasından heyranlıqlarını ifadə etmişlər.

Dünya Bankı ilə birgə layihənin müsbət nəticələri əməkdaşlığın daha da genişləndirilməsinə zəmin yaratmışdır. 2014-cü ilin oktyabrında Bank və Azərbaycan Hökuməti arasında "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" adlı yeni daha irihəcmli layihə imzalanaraq onun icrasına başlanılmışdır. Layihə çərçivəsində yeni məhkəmə və məhkəmə komplekslərinin tikintisi, qabaqcıl İKT-lərin geniş tətbiqi, ədliyyə işçiləri və hakimlərin peşəkarlığının yüksəldilməsi, hüququn müxtəlif sahələri üzrə vətəndaşların məlumatlılığının artırılması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2013-cü il tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması ilə bağlı sərəncamı məhkəmə islahatlarında yeni mərhələnin başlanğıcını qoymuş və məhkəmə sistemində inqilabi dəyişikliyi şərtləndirmişdir. Bununla əlaqədar yeni inşa olunan məhkəmə binalarında elektron məhkəmənin tətbiqinə dair bütün zəruri infrastruktur nəzərdə tutulmuş, müasir texnologiyalar və avadanlıqlar quraşdırılmışdır.

Görülən məqsədyönlü işlər ədalət mühakiməsinin effektiv həyata keçirilməsinə, vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasına, keyfiyyətli xidmətlərin göstərilməsinə öz müsbət təsirini göstərmiş, nəticədə cəmiyyətdə məhkəmələrə inam artmışdır.

**Bütün bunlar bir daha təsdiqləyir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yüksək əzmlə, yeni dövrün gerçəkliklərinə uyğun davam etdirilir, məhkəmələrin fəaliyyətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi məsələlərinə böyük həssaslıqla yanaşılır. Ümidvarıq ki, görülmüş tədbirlər nəticəsində ədalət mühakiməsini həyata keçirən məhkəmələrin fəaliyyəti daha da təkmilləşdiriləcək, insan hüquq və azadlıqlarının təminatında bu müstəqil hakimiyyət institutunun rolu və imkanları daha da genişlənəcəkdir.**

**Eynulla VƏLİYEV,**
**Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi.**